# Elmə həsr olunmuş ömür

**Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsi "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının dosenti Aşur Əliyevin Azərbaycan kitabxanaşünaslıq elminin inkişafında, eləcə də yüzlərlə kitabxanaçı kadrın hazırlanmasında böyük əməyi olub.**

**Aşur Müseyib oğlu Əliyev 1946-cı il iyunun 1-də Zəngilan rayonunun Baharlı kəndində anadan olub. Onun bütün uşaqlıq dövrü Zəngilanda keçmişdi. 1953-1957-ci illərdə Baharlı kənd ibtidai məktəbində oxuyan Aşur Əliyev ilk təhsilini Aslan Vəliyev kimi mahir pedaqoqdan almış, sonra isə 11 illik Mincivan dəmiryolu məktəbində təhsilini davam etdirmişdi.**

Aşur Əliyev orta məktəbi bitirdikdən sonra elm, təhsil dalınca Bakıya yola düşür, imtahanlardan uğurla çıxaraq tələbə adını qazanır.

1969-cu ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vuraraq hərbi xidmətə yollanır. Ordu sıralarında bir il xidmət etdikdən sonra Abşeron rayon Şurabad kənd mədəniyyət evinin müdiri vəzifəsində ilk əmək fəaliyyətinə başlayır.

1974-1977-ci illərdə Kitabxanaçılıq fakültəsinin aspirantı olan A.Əliyevin dissertasiya işi çox mühüm və maraqlı mövzuya - "Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixinin öyrənilməsi"nə həsr olunmuşdu. O, uzun müddət Azərbaycanın rayonlarının, Naxçıvan Muxtar Respublikasının arxivlərində, kitabxanalarında və əlaqədar təşkilatlarında elmi araşdırmalar aparır, mövcud ədəbiyyatın, əlyazmaların və dövri mətbuat materiallarının peşəkarlıqla əlaqələndirilməsi nəticəsində maraqlı fakt və hadisələri üzə çıxarır. Nəticədə Naxçıvan Muxtar Respublikasında 1920-1985-ci illərdə kitabxana quruculuğu sahəsində qazanılan nailiyyətlər haqqında dəqiq məlumatlar əldə edilir. Bu, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında kitabxana işinin öyrənilməsinə bəxş edilən böyük töhfə idi.

Beləliklə, Aşur Əliyev 1991-ci il martın 31-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin İxtisaslaşdırılmış birdəfəlik Şurasında uzun illərin gərgin zəhmətinin, yorulmaz araşdırmalarının və yuxusuz gecələrinin bəhrəsi olan "Naxçıvan MSSR-də kitabxana işi (1920-1985-ci illər)" adlı dissertasiya işini uğurla müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülür. 1992-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona dosent elmi dərəcəsi verilir.

Aşur Əliyevin gənc nəslin maariflənməsində də böyük əməyi olmuşdur. Müəllifi və ya həmmüəllifi olduğu elmi məqalələr, tədris-metodik vəsaitlər, proqramlar milli kitabxanaşünaslıq irsinə böyük töhfələr verib. Onun qələmindən çıxan "Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi metodikası", "Ədəbiyyatın KBT cədvəlləri üzrə sistemləşdirilməsi", "Çap əsərlərinin biblioqrafik təsviri qaydaları" və s. metodik göstərişləri kitabxanaşünaslıq sahəsi üzrə qiymətli mənbələrdən sayılır.

Müstəqil Azərbaycanda kitabxanaşünaslıq elminin ən böyük nailiyyətlərindən biri Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının professor-müəllim heyətinin böyük zəhməti hesabına ərsəyə gələn "Kitabxanaşünaslıq: kitabxana kataloqları" adlı dərs vəsaitidir. Aşur müəllimin həmmüəllifi olduğu dərs vəsaiti bu sahə ilə məşğul olan elm adamlarının stolüstü kitabına çevrilib.

40 ilə yaxın elmi və pedaqoji fəaliyyətlə məşğul olan dosent Aşur Əliyev bir sıra ixtisaslaşdırılmış müdafiə şuralarının, 1992-ci ildən isə Fakültə Elmi Şurasının, həmçinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informasiyaya dair elmi-nəzəri, metodik və təcrübi jurnalların, eləcə də bəzi qəzet redaksiya heyətlərinin üzvü idi.



O, bütün şüurlu ömrünü Bakı Dövlət Universitetinə, doğma Kitabxanaçılıq fakültəsinə bağlamış, 1973-cü ildə baş laborantlıqdan başlayaraq müəllim, baş müəllim vəzifələrinə qədər şərəfli yol keçmişdi. Gənc yaşlarından fakültədə dekan müavini işləmiş, həm fakültədə, həm də universitetdə müəllim-tələbə heyətinin böyük rəğbətini qazana bilmişdi. Hər kəslə öz dilində danışmağı bacaran A.Əliyev doğma fakültədə gənc nəslin təlim-tərbiyəsində bilik və bacarığını əsirgəmirdi. O, ömrünün son gününə qədər elmi-pedaqoji fəaliyyətlə məşğul oldu və bir gün də olsun usanmadan Tanrının ona bəxş etdiyi ömür payını elmə həsr etdi.

**Anar MƏMMƏDOV,**
**Bakı Dövlət Universitetinin dosenti, şair-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü.**

**Respublika.- 25 dekabr.- 2021- ci il.- S. 15.**